# Prezident İlham Əliyevin yeni idarəçilik texnologiyaları beynəlxalq konfransın gündəliyində

***Azərbaycan bu gün nəinki regionda, dünya miqyasında seçilən ölkələrdəndir. Ölkənin siyasi, iqtisadi, sosial və təhlükəsizlik sahələrindəki uğurlarının kökündə Prezident İlham Əliyev tərəfindən işlənmiş elmin ən müasir nailiyyətlərinə əsaslanan yeni idarəetmə texnologiyaları dayanır.***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ölkəmizdə yeni idarəetmə texnologiyaları və onların tətbiqi ilə qurulmuş səmərəli və çevik idarəetmə sistemi, həmçinin Azərbaycanın bu sahədə qabaqcıl təcrübəsi və qazandığı uğurların müzakirəsinə həsr olunmuş "Dövlət idarəçiliyində yeni texnologiyalar: davamlı inkişaf və inklüziv cəmiyyətə doğru" beynəlxalq elmi-praktik konfrans keçirilib. Onlayn formatda keçirilən konfransda azərbaycanlı alimlərlə yanaşı, Türkiyə, Rusiya, ABŞ, Çin, İsrail, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Tacikistanın milli dövlət idarəçilik akademiyaları və universitetlərinin rəhbərləri, nüfuzlu mütəxəssislər iştirak ediblər.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasında yeni idarəetmə texnologiyalarının səmərəliliyi: beynəlxalq qiymətləndirmə" mövzusunda məruzəsində ölkənin son illər Prezident İlham Əliyev tərəfindən işlənilmiş və dünyada ilk dəfə tətbiq edilən yeni idearəetmə texnologiyaları sayəsində inklüziv cəmiyyətin formalaşdırılması sahəsində dünya liderliyinə yüksəldiyini vurğulayıb. Rektor bildirib ki, beynəlxalq təşkilatların rəsmi hesabatlarına görə, hazırda Azərbaycan Respublikası dünyada inklüziv inkişaf sahəsində maddi və insan resurslarından ən səmərəli istifadə edən ölkədir. Natiq vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycanın yüksək



göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. U.Ələkbərov 44 günlük Vətən müharibəsindəki parlaq qələbədə böyük payın olduğunu da xüsusi vurğulayıb. Eyni zamanda, diqqətə çatdırılıb ki, məhz bəhs edilən idarəetmə texnologiyaları dünyanın iqtisadi nəhənglərini diz üstə qoyan pandemiya zamanı Azərbaycanın taktiki qələbəsini şərtləndirib.

Yeni dövlət idarəçiliyi və davamlı inkişaf məqsədləri, qlobal pandemiya dönəmində dövlət, müasir dövrdə dövlət qulluğunun idarə olunması, "ağıllı" şəhər və kəndlərin idarə edilməsinə süni intellektin rolu, dövlət idrəçiliyində dəyişikliklərin idarə olunması, ölkələrin sülh paradiqmaları konfransın əsas müzakirə mövzularından olmuşdur.

Konfrans iştirakçılarının çıxışları və aparılan müzakirələr gedişində Azərbaycanda işlənilmiş yeni idarəetmə texnologiyalarının tədqiqi, alınan nəticələrin tədris proqramlarına, xüsusilə də dövlət qulluqçularının hazırlığı və yenidən hazırlığı prosesinə daxil edilməsi, ümumiyyətlə, bu sahədə qazanılan təcrübənin digər ölkələrdə də yayılmasının faydalı ola biləcəyi qənaətinə gəlinmişdir.

***Ə.BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 12 dekabr.- S.6.